

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 54 (23.466)

*19 mart 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib, Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşüb.

Dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verilərək bildirilib ki, Görədildə yaşayan əhalinin dəmir yolu xidmətlərindən yüksək səviyyədə istifadə etməsi və onların rahatlığı üçün hər cür şərait yaradılıb. Bina bütün zəruri infrastrukturla təchiz olunub, buradakı platformalar da ən müasir səviyyədə yenidən qurulub. Görədil-Novxanı-Sumqayıt sərnişin xətti boyu, ümumilikdə, 15 stansiya və dayanacaq inşa edilib və əsaslı təmir olunub. Yenidən qurulan Görədil dayanacağının ümumi sahəsi 6300, Novxanı dayanacağının ümumi sahəsi isə 8 min kvadratmetrdən çoxdur.

Prezident İlham Əliyev Novxanı dayanacağına gəlib, burada Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra rəmzi açılışını bildirən lenti kəsib, dəmiryolçularla görüşüb, onları qarşıdan gələn bayram münasibətilə təbrik edib, yeni uğurlar arzulayıb.

## Naxçıvan Muxtar Respublikasına yeni kənd təsərrüfatı texnikaları gətirilib







Martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

Naxçıvan Muxtar Respublikasının Baş nazirinin birinci müavini Elşad Əliyev məlumat vermişdir ki, aqrar sahədə sistemli şəkildə həyata keçirilən islahatlar və aparılan kompleks işlər nəticəsində kənd təsərrüfatı yeni inkişaf mərhələsinə yüksəlmişdir. Hazırda torpaq mülkiyyətçisi və fermerlər dünyanın qabaqcıl texnika və texnoloji avadanlıqlarından istifadə edirlər. Muxtar respublikada kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnologiyaların tətbiqi davam etdirilir. Taxıl, kartof, qarğıdalı bitkilərinin əkilib-becərilməsi və yığılması tam mexaniki üsulla həyata keçirilir.

Yeni alınan texnikalara baxış zamanı bildirilmişdir ki, ötən dövrdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2 min 831 kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. Cari ildə isə sahibkarların texnika təminatını düzgün təmin etmək üçün onların sifarişləri əsasında 137 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmiş, həmin texnikalardan 24-ü lizinq yolu ilə sahibkarlara verilmişdir.

Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bitkiçilik və heyvandarlıq aptekinə, həmçinin ehtiyat hissələri anbarlarına baxmışdır.

Bildirilmişdir ki, bitkiçilik və heyvandarlıq aptekində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır.

Ali Məclisin Sədri kənd təsərrüfatında yeni innovasiyaların tətbiqinin əhəmiyyətini vurğulamış, texnikalarla təminat və texniki qulluq işinin diqqətdə saxlanılması, sahibkarların tələbatına uyğun kənd təsərrüfatı texnikalarının və onların ehtiyat hissələrinin alınıb gətirilməsi, eləcə də maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yaşıllaşdırma tədbirlərinin miqyası genişləndirilir



*Ötən illərdə olduğu kimi, 2020-ci ilin yaz mövsümündə də muxtar respublikanın meşə və qeyri-meşə fondu torpaqlarında, xüsusilə kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri icra olunacaq. Yaxın günlərdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarında 2 hektar ərazidə tinglərin əkilməsi üçün hazırlıq işlərini yekunlaşdırıblar.*

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri tərəfindən bu yaz 262,1 hektar sahədə yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub. Yaşıllaşdırma tədbirləri çərçivəsində 59,4 hektar sahədə meyvə, 5,3 hektarda üzüm bağları, 117 hektar sahədə toxumla əkin, 78,4 hektarda tinglə bərpa aparılacaq.

Nazirlik tərəfindən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində cari ildə də aparılacaq yaşıllaşdırma tədbirləri zamanı kənd təsərrüfatı əkinləri üçün yararsız olan sahələrdə meyvə bağlarının salınması, eroziya və şoranlaşmaya məruz qalmış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qaytarılmasına üstünlük veriləcək. Yaz əkini mövsümündə 24,7 hektar sahədə meyvə, 1 hektarda üzüm bağı, 117 hektar sahədə toxumla əkin, 26,5 hektarda tinglə bərpa olmaqla, ümumilikdə, 169,2 hektar sahədə yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri həyata keçiriləcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" Sərəncamına uyğun olaraq yaşıllıq sahələrinin genişləndirilməsi məqsədilə yaz əkini mövsümündə 70 hektar sahədə toxumla, 10 hektarda isə tinglə əkin işləri icra olunacaq.

Növbəti illərdə tingə olan tələbatın ödənilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2 hektar sahədə yeni toxmacarlıq və qələmkökləndirmə sahələrinin yaradılması nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanın etnik və siyasi tarixi: erməni uydurmaları və tarixi həqiqətlər

***Naxçıvan diyarının əlverişli təbii-coğrafi mühiti qədim Daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Arxeoloji tədqiqatlar zamanı Sabir-Dizə (Ordubad rayonu), Şahtaxtı (Kəngərli rayonu) və Ovçular təpəsi (Şərur rayonu) yaşayış yerlərində Daş dövrünə aid əldə edilmiş maddi mədəniyyət nümunələri Naxçıvanda qədim insanların milyon il bundan əvvəl məskunlaşdığını təsdiq edir. Qazma mağarasındakı tədqiqatlar Paleolit dövrünün orta və son mərhələsində Naxçıvanda həyatın davam etdiyini göstərir. Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu təsdiq edir.***

Naxçıvanda Neolit dövrü e.ə. VII-VI minilliyi əhatə edir. Babək rayonunun Kültəpə kəndində yerləşən I Kültəpə abidəsinin araşdırılması onun Neolit dövründə Cənubi Qafqazın ən qədim yaşayış məskəni olduğunu göstərmişdir. I Kültəpədən aşkar olunan tikinti qalıqları Neolit dövründə insanların dördkünc və dairəvi formalı evlərdə yaşadığını, başlıca olaraq əkinçilik və maldarlıqla məşğul olduğunu göstərir. I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir azərbaycanlılara bənzər olduğunu sübut edir.

Naxçıvanda Eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Cənubi Qafqazda Eneolit dövrünün erkən mərhələsi, hələlik, Naxçıvan abidələri ilə təmsil olunmuşdur. Naxçıvanda yerləşən Naxçıvantəpə, Uçan Ağıl, Ovçular təpəsi, Sədərək, Xələc, Ərəbyengicə, Zirincli və digər abidələr Eneolit mədəniyyətinin ardıcıl mərhələlərini izləməyə və bu mədəniyyətlərin Azərbaycan üçün xarakterik olduğunu müəyyən etməyə imkan vermişdir.

Naxçıvan şəhəri ərazisində yerləşən Naxçıvantəpə yaşayış yeri həm Eneolit dövrünün erkən mərhələsini, həm də Naxçıvan şəhəri ərazisində məskunlaşmanın tarixini öyrənmək baxımından əhəmiyyətlidir. Neolit dövrünün sonu, Eneolit dövrünün əvvəllərində Naxçıvan ərazisini də əhatə edən vahid mədəniyyət – Dolmatəpə mədəniyyəti formalaşmışdır. Arxeoloji faktlar Naxçıvan və Qarabağda formalaşan qədim mədəniyyətlərin Azərbaycanla bağlı olduğunu təsdiq edir.

E.ə. V-III minilliklərdə – Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti formalaşmışdır. Ən qədim Erkən Tunc dövrü abidələri Naxçıvanda aşkar olunmuşdur ki, bu da Naxçıvanın Kür-Araz mədəniyyətinin əsas vətəni olduğunu təsdiq edir. Azərbaycanın cənubunda, eləcə də Naxçıvanda Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, su və turukki tayfaları olmuşdur.

E.ə. III minilliyin sonunda Erkən Tunc dövrü Orta Tunc dövrü ilə əvəz edilmişdir. Eneolit və Tunc dövrlərinin Gəmiqaya təsvirləri Nuh Peyğəmbərin adı ilə bağlı olmuşdur. E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərinin formalaşdığını təsdiq edir. Naxçıvan, II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır.

Geniş ərazidə yayılan boyalı qabların bütün xüsusiyyətləri Naxçıvanda izlənmişdir. Arxeoloji tədqiqatlar Naxçıvanda şəhərtipli yaşayış yerlərinin e.ə. III minillikdə, yəni 5 min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir. II Kültəpə, Şahtaxtı, Naxçıvan Azərbaycanın ən qədim şəhərləri olmuşdur.

Göründüyü kimi, e.ə. VII minillikdən başlayaraq ilk minilliklərə qədər olan və yaradılan mədəniyyətlərdə Naxçıvan əhalisi ya iştirak etmiş, ya da Naxçıvanı əhatə etmişdir. Bunların heç birinin ermənilərə aidiyyəti yoxdur. Ona görə ki, həmin müddətdə daimi yaşayış yeri olmayan, bu ərazilərə aid olmayan ermənilərin bu mədəniyyətlərə nə aidiyyəti ola bilərdi? Vaxtilə coğrafi cəhətdən Azərbaycanın mərkəzində yerləşən, geosiyasi mövqeyi ilə seçilən Naxçıvan ən qədim insanların yaşayış yeri, dünyanın sivilizasiya mərkəzlərindən biri kimi tanınmışdır.

Ermənilərin iddiasında olduqları Naxçıvan ərazisi tarixən azərbaycanlılara məxsus olmuş, burada türkdilli xalqlar yaşamış, minlərlə maddi mədəniyyət nümunələri yaratmışlar. Ərazinin coğrafi adları, bütünlüklə, Azərbaycan-türk mənşəlidir.

Erməni “tədqiqatçıları” uydurmalarını irəli sürərkən Naxçıvanın etnik tarixinə, tarixi və memarlıq abidələrinə, xüsusən siyasi tarixinə istinad edirlər.

Naxçıvan tarixin heç bir mərhələsində ermənilərə aid olmamışdır. Ona görə ki, ermənilər bu regionun yerli – aborigen əhalisi olmamışlar, onlar Cənubi Qafqaza gəlmədirlər, yaşadıqları indiki Ermənistan ərazisi qədim və tarixi Azərbaycan torpaqlarıdır. Bununla bağlı V.İşxanyan göstərmişdir ki, “ermənilərin həqiqi vətəni Kiçik Asiyadır, Qafqaz ərazisinin müxtəlif hissələrinə ermənilər yalnız son yüzilliklər ərzində səpələniblər”.

Azərbaycan türkləri bu ərazilərin ən qədim sakinləri, aborigen əhalisi olmuşdur. Qədim erməni mənbələrinin heç birində Naxçıvan bölgəsində ermənilərin yaşaması haqqında məlumat yoxdur.

*Naxçıvanın etnik tarixi.* Naxçıvan bölgəsində yaşamış kuti, lullubi, subi, turukki və başqa tayfalar bu ərazilərin ən qədim sakinləri olmuşlar. Naxçıvan bölgəsi tarixən Cənubi Azərbaycan ərazisində mövcud dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türk mənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur.

E.ə. I minilliyin əvvəllərində göstərilən tayfalar əsasında Assur mənbələrində adları Manna və Maday kimi çəkilmiş etnoslar tarix səhnəsinə çıxırlar. Manna (e.ə. IX-VII əsrlərdə) və Midiya (e.ə. 673-550-ci illər) dövlətləri türk xalqlarının tarixində mühüm siyasi qurumlardır. Naxçıvan bölgəsi müxtəlif vaxtlarda Midiyanın sərhədləri daxilində olmuşdur. E.ə. VI əsrin ortalarında Naxçıvan bölgəsinə 10 min nəfər midiyalı ailə köçürülmüşdür. Ərəb sərkərdəsi Həbib ibn Məcləmənin Naxçıvan əhalisi ilə bağlı verdiyi fərmanda Naxçıvan əhalisi “maq” (mar) adlandırılır. “Naxçıvan marların ölkəsidir” (F.Buzand), “Qoxtanda marların kəndləri mövcuddur” və sair. Naxçıvan ərazisi eramızdan xeyli əvvəl başlayaraq Azərbaycanın tərkib hissəsi olmuşdur. Bu ərazinin qədim əhalisi Cənubi Azərbaycan ərazisində yaşamış tayfalarla eyni etnik mühitə, mənşəyə malik idi.

Naxçıvan bölgəsinin ən qədim yerli əhalisi türkdilli tayfalar olmuşdur. E.ə. VII əsrdə Cənubi Qafqaza gəlmiş sak tayfaları Naxçıvan ərazisində də məskunlaşmışdır. E.ə. II əsrdə Naxçıvanda bulqar tayfaları, bir qədər sonra qarqar, şirak, basin, alban, xəzər, gorus və başqa türk qəbilələri yaşamağa başlamışdır. Xəzərlərin abas, kulac, tarna, avar, oğuz, birol, paçinak, kabar tayfaları Naxçıvana gəlmiş və burada məskunlaşmışlar. Naxçıvan bölgəsində eramızın əvvəllərində məskunlaşan digər türkdilli tayfalar peçeneqlər, kəngərlilərdir. Peçeneqlər indiki Ermənistan ərazisində də məskunlaşmışlar. Qarabağ, Qafan toponimləri peçeneqlərin Qarabay tayfasının adı ilə bağlıdır.

Eramızın ilk əsrlərindən burada yaşayan Kəngər tayfaları bölgənin inkişafında tarixi rol oynamışdır. IX əsrin əvvəllərinə aid məlumatlarda Naxçıvan əyalətindəki 2791 azərbaycanlı ailəsindən 920-si kəngərlilər nəslinə mənsub olmuşdur. İ.Şopenə görə, Naxçıvandakı kəngərlilər aşağıdakı tayfalardan ibarət idi: yurdçu, qızıllı, sarvanlar, xalxallı, pirhəsənli, salas, ağabəyli, qarabağlar, kəmən, çağatay, qaraxan, hacılar, cəmşidli, bilici, qurdlar, qaradolaqlı, kəlfir, kürdmahmudlu, bərgüşadlı və başqaları.

İ.Şopen kəngərlilər nəslinin 1433 ailədən ibarət olmasını göstərir. Ola bilsin, kəngərlilərdən Qarabağda qışlayanları Naxçıvanda aparılan bəzi siyahıyaalmalarda nəzərə almayıblar. 1727-ci ildə tərtib edilmiş “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”nə görə, “Naxçıvan elatı”ndan olan kəngərli camaatı Qarabağda qışlayar, Naxçıvanda yaylarmış. Yenə də İ.Şopenə görə, Rusiya Naxçıvanı işğal edən zaman orada 67 xan, 373 bəy və sultan olmuşdur. K.Smirnov isə Naxçıvanda Kəngərli nəsli ilə yanaşı, aşağıdakı bəy nəsillərinin də yaşadığını yazır: Ağasıbəyovlar, Şahtaxtinskilər, Talışovlar, Vəzirovlar, Camalbəyovlar, Sultanovlar, Elçiyevlər, Muradəsilbəyovlar və başqaları.

XIX əsrin 30-cu illərinə aid mənbədə göstərilir ki, Naxçıvan əyalətində 2 böyük tayfa birləşməsi yaşayır: Kəngərlər və Qaracalar. Kəngərlər tayfası Naxçıvan əyalətinin 40-a yaxın kəndində, Qaracalar tayfası isə Dərələyəz mahalında yaşayırdılar.

Naxçıvan ərazisində abdal, hun, goruş, quşçu, bayan, yaycı, bəkdili, xələc, ustaclı, rumlu, didivarlı, qızıllı, əmirxanlı, ərəfsəli, hacılı, keçili, kəlfirli, qaraxanbəyli, qarxunlu, əlixanlı, muğanlı və onlarla başqa türkdilli tayfa və qəbilə adları ilə adlanan coğrafi adlar bu gün də mövcuddur.

XIII əsrə aid “Dünyanın qəribəlikləri” (“Əcaib əd-dünya”), XVIII əsrə aid “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Naxçıvanın etnik tarixinə aid çox tutarlı, əhalinin milli xüsusiyyətlərinə aid çox dəyərli faktlar göstərilir: “Naxçıvandakı əhali ağbənizdir, qorxmaz, qonaqpərvər və xoş xasiyyətlidirlər, dilləri xoşagələndir, İslamın şafei təriqətinə aiddirlər” (XIII əsr). “XVIII əsrin əvvəllərində Naxçıvan sancağındakı müsəlmanlar əhalinin ümumi sayındakı nisbəti, təqribən, 76-80 faizi təşkil edir”.

XIX əsrin ortalarında İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasını tədqiq etmiş A.Parvitski yazır ki, qəzada 55 azərbaycanlı kəndi, 7 erməni kəndi vardır. Qriqoryevə görə, Naxçıvan əyalətində 4959 ailədən 4149-u müsəlman, 810-u isə erməni ailəsidir.

Naxçıvanda ermənilərin sayı İrandan köçürülən ermənilərin hesabına artmışdır. XX əsrin 20-ci illərinə yaxın Naxçıvanda ermənilər əhalinin 14-16 faizini təşkil etmişlər. Bu, çarizmin Azərbaycan ərazisini, o cümlədən Naxçıvanı erməniləşdirmək siyasətinin nəticəsi idi. 1918-ci ildə – 15 əsrdən sonra qədim Azərbaycan torpaqlarında dövlətlərini yaradan erməni millətçiləri böyük iddialara düşdülər, Naxçıvana sahib olmaq üçün açıq silahlı müdaxiləyə başladılar, soyqırımı törətdilər. Bununla belə, Naxçıvana yiyələnə bilmədilər.

Gətirilən faktlar bir daha açıq-aşkar göstərir ki, ermənilər Naxçıvan ərazisinə gəlmədirlər, bölgənin aborigen əhalisi Azərbaycan türkləridir.

*Naxçıvanın siyasi tarixi.* Naxçıvan diyarının etnik tarixi, milli tərkibi kimi, siyasi tarixi də Naxçıvana qarşı erməni uydurmalarını rədd edir, tarixi həqiqətləri ortaya qoyur.

Ermənilərin “Naxçıvan tarixi erməni torpaqlarıdır”, “Naxçıvan bir neçə minillik ərzində erməni dövlətlərinin ayrılmaz hissəsi olmuşdur” fikirləri saxta və uydurmadır. Elə buradaca belə bir məntiqi sual ortaya çıxır: Erməni dövlətçiliyinin minillik tarixi vardır ki, başqa torpaqlar da hələ onun ayrılmaz hissəsi olsun?

Erməni tarixi saxta faktlara əsaslanır və daha çox erməni çarı Tiqranla öyünürlər. Makkartilərin fikrincə, müstəqil erməni çarlığı e.ə. I əsrdə yaranmışdır: “Ermənilərin erkən tarixi haqqında kifayət qədər dəqiq məlumat yoxdur. Şərqi Kiçik Asiyada olan müstəqil erməni çarlığı böyük Tiqran (e.ə.95-56) dövründə (öyündükləri 61 il ?!) yaranmışdır. Tiqrandan sonra ermənilər bir çox əsrlər ərzində Roma, Sasanilər, İran və Bizans imperiyaları da daxil olmaqla digər ölkələrin vassalları olmuşlar”. Ermənilər bir də müstəqil dövlətlərini 1918-ci ildə xarici dövlətlərin köməyi ilə qura bilmişlər, özü də Azərbaycan ərazilərində.

Ermənilərin Naxçıvanla bağlı siyasi iddiaları daha çox eramızdan əvvəlki dövrlərə (e.ə. IX əsr – eramızın V əsri ?!) aid edilir. Bunlardan birincisi Urartu Ermənistanıdır (e.ə.9-7 əsrlər). Urartu nə vaxtdan erməni dövləti olub? Elə buradaca ilk saxtakarlıq ortadadır...

Məlumdur ki, e.ə. IX əsrdə Cənubi Azərbaycanda Manna dövləti olub. Naxçıvan Mannanın, sonra Midiya, Atropatena dövlətlərinin və Makedoniyalı İsgəndərin imperiyasının tərkibində olub. I-IV əsrlərin müəyyən illərində Naxçıvan Şimali Azərbaycanın (Albaniyanın) vilayəti olmuşdur. Naxçıvan 380-ci il sülh müqaviləsinə görə, VII əsrə qədər fasilələrlə Sasanilərin nüfuzunda qalır. Beləliklə, gətirilən faktlar erməni yalanlarını üzə çıxarır. Naxçıvan nə e.ə. IX – eramızın V əsrlərində, nə də tarixin heç bir dövründə erməni dövlətlərinin (?!) ixtiyarında olmamışdır.

VII əsrdən sonrakı tarixdə elə bir qaranlıq məqamlar olmadığından erməni saxtakarlığı həmin dövrə müdaxilə edə bilməmişdir. Naxçıvan diyarı VII-IX əsrlərdə ərəb xilafətinin, sonra Sacilər və Salarilər dövlətlərinin tərkibində olub. X-XI əsrlərdə isə Naxçıvanşahlıq fəaliyyət göstərib. Naxçıvan 1064-cü ildə Səlcuq dövlətinə tabe edilmiş, 1146-1175-ci illərdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş, 1225-ci ilə qədər bu dövlətin ərazisi kimi qalmışdır. Eldənizlərdən sonra Naxçıvan bir müddət, daha doğrusu, Hülakülərə qədər xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin nüfuz dairəsində qalır.

Hülakülər dövründə Naxçıvan Azərbaycan vilayətinin (Cənubi Azərbaycan nəzərdə tutulur) 9 tümənindən biri olub. Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə şəhərləri, Qafan ərazisi Naxçıvan tüməninə daxil idi.

Naxçıvanın sonrakı siyasi tarixində mübahisə doğuracaq erməni saxtakarlığı üçün “əl yeri olmayan” faktları uydurmaq mümkün deyildir. XV əsrdə Naxçıvan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrdən Səfəvilər dövlətinin tərkibində olmuşdur. Səfəvilər dövründə Naxçıvan Çuxursəd bəylərbəyliyinin bir hissəsi idi. Osmanlı imperiyası 1588-1603 və 1724-1736-cı illərdə Naxçıvanı da öz tabeliyinə alır. Naxçıvan sancağı 14 nahiyə və 315 yaşayış məntəqəsini əhatə edirdi. Muxtar respublikanın indiki ərazisindən başqa, buraya indiki Ermənistanın Yexeqnadzor rayonu, bütövlüklə, Cermuq rayonunun yarısı, Sisyan rayonunun böyük bir hissəsi və Mehri daxil olmaqla, rayonun bir neçə yaşayış məntəqəsi Naxçıvan sancağının tərkibinə daxil idi.

Naxçıvanın orta əsrlər tarixi barədə ilk mənbələrdən və tədqiqat əsərlərindən əldə olunan məlumatlardan aydın görünür ki, Naxçıvan ərazisi bütün orta əsrlərboyu Azərbaycanın tərkib hissəsi kimi mövcud olmuş və öz fəaliyyətini Azərbaycanla əlaqəli davam etdirmişdir.

Erməni “tədqiqatçıları” “Naxçıvan XIX əsrin əvvəllərində də Ermənistanın tərkibində olmuşdur” kimi yanlış və qeyri-obyektiv fikirlər söyləyirlər. Qeyd etməliyik ki, həmin dövrdə Ermənistan dövləti yox, “erməni vilayəti” (1828-1840) olmuşdur, bu isə Azərbaycan ölkəsinin bölgələri olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmışdır. Orada yaşayan əhalinin tərkibində müsəlmanlar mütləq əksəriyyət təşkil edirdilər.

Çar Rusiyası XIX əsrin ortalarında ölkədə müəyyən islahatlar keçirdi: 1840-cı ildə komendant idarə üsulu ləğv edildi, quberniyalar və mahallar əvəzinə inzibati bölgüyə əsasən “qəza statusu ilə 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya, 1849-cu ildə isə İrəvan quberniyalarının tərkibinə qatıldı. Naxçıvan qəzası Naxçıvan, Ordubad və Dərələyəz məntəqələrindən ibarət idi. Mərkəzi Naxçıvan şəhəri olmuşdur.

XX əsrin əvvəllərində Bakı quberniyası 6 qəzaya, Yelizavetpol quberniyası 8 qəzaya və 1 dairəyə, İrəvan quberniyası 7 qəzaya (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazid, Sürməli, Eçmiədzin, Aleksandropol) bölünmüşdü.

Naxçıvanın siyasi tarixində 1917-1920-ci illər hadisələri çox mühüm yer tutur. Erməni “araşdırıcıları” bilərəkdən həmin illərin siyasi hadisələrini dolaşdırır və belə bir qeyri-elmi fikir söyləyirlər ki, “1921-ci il Moskva müqaviləsi Naxçıvanı Azərbaycana birləşdirmişdir, bu müqaviləyə qədər Naxçıvan Azərbaycanın tərkibində olmamışdır”.

Ermənilərin 1918-1920-ci illərdə apardıqları əsas mübarizə istiqaməti Naxçıvanı tutmaq idi. Batum müqaviləsinə görə, qədim Azərbaycan ərazisi olan İrəvan xanlığı ərazisində Ermənistan Respublikası yaradıldı, sahəsi 9 min kvadratkilometr idi. Bununla kifayətlənməyən erməni millətçiləri Naxçıvanı işğal etmək üçün açıq silahlı mübarizəyə başladılar. Bunun üçün 1919-cu ilin noyabrında Zəngəzurun bir hissəsini tutdular və Naxçıvan Azərbaycandan ayrı salındı. Həmin dövrdə Azərbaycanın sahəsi 114 min kvadratkilometr təşkil edirdi ki, Naxçıvan da bura daxil idi. Naxçıvan Azərbaycandan ayrı düşsə də, naxçıvanlılar özlərini Azərbaycandan ayrı hesab etmirdilər. Naxçıvanlılar ərazini qoruyub saxlamaq üçün Araz-Türk Cümhuriyyətini yaratmış, özünümüdafiə dəstələri təşkil etmişdilər. Erməni daşnakları “başa düşdülər” ki, nə siyasi, nə də silahlı yolla Naxçıvana sahib ola bilməyəcəklər. Bundan sonra onlar ərazini qoparmaq üçün yalan və uydurma təbliğat aparmaq yolunu tutdular.

Ermənistanın birinci baş naziri O. Kaçaznuni 1923-cü ildə Naxçıvanla Şəruru “müsəlman Naxçıvanı və Şəruru” adlandıraraq yazmışdı: “Müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Lakin uğursuzluğa uğradıq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə, hətta silah gücünə öz hakimiyyətimizi qura bilmədik, məğlub olduq və geri çəkildik”.

1918-1920-ci illərdə xarici dövlətlərin köməyindən istifadə edən Ermənistan hökuməti cidd-cəhdlə Naxçıvana yiyələnməyə çalışırdı. Lakin Naxçıvan əhalisinin qətiyyətli mübarizəsi Ermənistan hökumətinin iddialarına imkan vermədi. Ermənilərin zor gücünə, hərbi yolla Naxçıvanı işğal etmək niyyəti baş tutmadı. Belə olan halda, Ermənistan siyasətini pərdələməyə başladı. 1920-ci il dekabrın 28-də Ermənistan Hərbi İnqilab Komitəsi Naxçıvanın müstəqilliyini tanıması barədə bəyanat verdi.

*Ardı 3-cü səhifədə*

1921-ci ilin əvvəlində Naxçıvanda referendum keçirildi. Əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

1921-ci il martın 16-da Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi Naxçıvanın ərazi statusunu təsbit etdi və Naxçıvana Azərbaycanın protektoratı altında muxtariyyət verilməsini müəyyənləşdirdi. Moskva müqaviləsinin şərtləri 1921-ci il oktyabrın 13-də Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında Rusiya nümayəndəsinin iştirakı ilə bağlanmış Qars müqaviləsi ilə daha da möhkəmləndirildi.

Ermənistan nümayəndəsi Qars müqaviləsini imzalamaqla öz üzərlərinə bu müqavilənin maddələrini, həm də Naxçıvanın dövlət ərazi statusu ilə bağlı maddələri pozmayacağı haqqında öhdəlik götürdü. Lakin sonrakı dövrlərdə və indi də Ermənistan nəinki götürdüyü öhdəliyi yerinə yetirir, həmin müqavilənin ləğv edilməsinə çalışır. Ermənistan hökuməti müqaviləni pozaraq Zaqafqaziya MİK-in 18 fevral 1929-cu il Qərarı ilə Naxçıvan Muxtar Respublikasının 657 kvadratkilometr ərazisini əhatə edən 10 kəndinə yiyələndi. Beləliklə, 9 min kvadratkilometr ərazi ilə (bunlar da Azərbaycan torpaqlarıdır) yaradılan Ermənistan Respublikası 29,8 min kvadratkilometr əraziyə malikdir.

Bunlarla kifayətlənməyən ermənilər və Ermənistan dövləti bütün XX əsrboyu olduğu kimi, bu gün də öz məkrli niyyətlərindən əl çəkmir, fürsət düşdükcə Naxçıvana qarşı ərazi iddiaları irəli sürür və buna mane olan Moskva və Qars beynəlxalq müqavilələrinin ləğv edilməsini tələb edirlər. Müqavilələr müddətsiz imzalanmış və beynəlxalq səviyyə daşıdığından onları müqaviləni imzalamış dövlətlərdən hər hansı biri birtərəfli qaydada ləğv edə bilməz.

Ermənistan dövləti bu gün də Naxçıvanla bağlı çirkin niyyətlərindən əl çəkmir, müxtəlif təşkilat və cəmiyyətlər yaradır, mətbu orqanlarda Naxçıvanla bağlı saxta, heç bir elmi əsası olmayan, obyektivlikdən uzaq olan yazılar dərc etdirirlər. Bununla ermənilər Naxçıvanla bağlı fikir formalaşdırmağa çalışırlar.

90-cı illərin əvvəllərində erməni millətçiləri Naxçıvan Muxtar Respublikası ərazisinə açıq hərbi təcavüzə başladılar, lakin bir şeyə nail ola bilmədilər. Bununla belə, Kərki kəndi ermənilər tərəfindən işğal olundu.

Bütün bunlar bir daha aydın göstərir ki, ermənilərin Naxçıvana qarşı ərazi iddiaları, bu zaman Naxçıvanın etnik və siyasi tarixinə "əsaslanmaları"nın heç bir elmi əsası yoxdur və gətirilən faktlar bu iddiaları rədd edir.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Naxçıvanda xalq yaradıcılığı sahələri yeni dövrünü yaşayır

*Xalqımızın ən qiymətli sərvəti olan, minilliklərboyu təşəkkül tapan adət-ənənələrə, xalq yaradıcılığı örnəklərinə, milli dəyərlərə həmişə böyük ehtiramla yanaşmışıq. Naxçıvanlılar bu dəyərlərin qorunub-saxlanılmasını, təbliğini, gələcək nəsillərə ötürülməsini özlərinin vətəndaşlıq borcu sayıblar. Bu gün də həmin vəzifələr ehtiramla yerinə yetirilir.*



Xalq yaradıcılığının yaşadılması, təbliği məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il fevralın 7-də Sərəncam imzalayıb. Sərəncama əsasən muxtar respublikada xalq yaradıcılığı günlərinin keçirilməsi ilə əlaqədar həmin il fevral ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib. Müşavirədə müxtəlif aidiyyəti qurumların sərəncamla bağlı fəaliyyət istiqamətləri, vəzifələr müəyyənləşdirilib. Vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılıb, məqsədyönlü tədbirlərin keçirilməsi sistemli xarakter alıb.

İlk olaraq onu qeyd edək ki, AMEA Naxçıvan Bölməsi tərəfindən hazırlanmış üç cilddə "Naxçıvan folkloru antologiyası", Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ərsəyə gətirilən "Naxçıvan teatrının salnaməsi", nazirliyin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi tərəfindən tərtib olunan "Naxçıvan milli geyimləri" və "Naxçıvan tikmələri", Prezident təqaüdçüsü Əkrəm Məmmədlinin "Naxçıvan-Şərur el yallıları" kitabları nəşr edilib, Şərur yallılarından ibarət disk buraxılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Yeri gəlmişkən qeyd edək ki, bu gün muxtar respublikada "Şərur" Xalq Yallı Ansamblı və rayon mədəniyyət şöbələrinin nəzdində yallı qrupları fəaliyyət göstərir. "Şərur" Xalq Yallı Ansamblının ifasından ibarət kompakt disklər hazırlanıb. Bu sahədə görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin tapşırığına əsasən AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirib, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2018-ci il 26 noyabr-1 dekabr tarixlərdə keçirilən 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil olunub.

Yeri gəlmişkən qeyd edək ki, ötən ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına 18 adda 20 qədim musiqi aləti hədiyyə olunub. Alətlər içərisində bərbəd, kamanlı rübab, şirud tənbur, coğur, bəm rübab, çəng, qabaq kaman, musiqar, ağız qopuzu, ovuc neyi var. Bu alətlərdən dövrümüzdə ilk dəfə olaraq istifadə edilməyə başlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə ötən il nəşr olunan və cari ilin mart ayında təqdimatı keçirilən kitablar arasında "Milli dəyərlərimiz rəsmi sənədlərdə" adlı toplu da var. Bu nəşrdə muxtar respublikada milli dəyərlərimizin yaşadılması ilə bağlı sərəncamlar toplanıb, görülən işlər işıqlandırılıb. Bilik Fondu tərəfindən yazıçı Rövşən Novruzoğlunun "Əshabi-Kəhf"ə məktub: Sürgündə qalan əhli-əyalım var" adlı kitabı nəşrə hazırlanıb və təqdimat mərasimi keçirilib, "Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı beynəlxalq konfransın materialları" jurnalı çap edilib. Həmin nəşrlər gələcək nəslin milli özünüdərk, vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində mühüm rol oynamadır.

Ozan-aşıq yaradıcılığının geniş tətbiq olunması, Naxçıvanda aşıq poeziyasının inkişaf mərhələlərinin araşdırılması davam etdirilir, xalq mahnı və rəqslərinin sistemli şəkildə təbliği, unudulmuş mahnı və rəqslərin bərpa olunması, onların aşkar edilib nota köçürülməsi, həmin nümunələrin folklor rəqs kollektivlərinin repertuarlarına daxil edilməsi və qədim xalq çalğı alətlərində ifaların nümayiş etdirilməsi sahəsində müvafiq tədbirlər görülüb, muxtar respublikanın ayrı-ayrı bölgələrindən toplanan yallı və saz havaları nota salınıb. Bu tədbirlərin davamı kimi





muxtar respublikada yaşayan peşəkar və həvəskar aşıqlar haqqında məlumat bazası yaradılıb, 2009-cu il dekabrın 22-dən Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb.

Naxçıvan Dövlət Universitetində xalq çalğı alətləri orkestri, Naxçıvan Musiqi Kollecində Qədim xalq çalğı alətləri ansamblı fəaliyyətə başlayıb, unudulmuş qədim musiqi alətlərinin bərpası davam etdirilir. Peşəkar musiqi kollektivlərinə, folklor kollektiv və qruplarına, bədii özfəaliyyət kollektivlərinə milli geyim dəstləri verilib. Dövlət tədbirlərində, əlamətdar və tarixi günlərdə, həmçinin bayramlarda həmin musiqi kollektivlərinin çıxışları təşkil edilir, gənclərdə qədim musiqi alətlərinə maraq artırılır.

Maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi milli mətbəx nümunələrimiz xalqımızın tarixini, etnoqrafiya və bədii xüsusiyyətlərini özündə əks etdirir. Bu sahədə də xeyli iş görülüb, tədqiqat materialları toplanılıb, sorğu-metodik vəsait hazırlanıb. Milli mətbəxin inkişafı ilə bağlı tədbirləri sistemləşdirmək və vahid mərkəzdən idarə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi yaradılıb, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin hərtərəfli fəaliyyəti təmin olunub, mərkəz tərəfindən hazırlanmış "Naxçıvan mətbəxi" kitabı oxuculara təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində 2009-cu ilin iyun ayından başlayaraq təşkil edilən xalçaçı, toxuculuq, misgərlik, keçəçi, qalayçı, ağac üzərində oyma kurslarını yüzlərlə gənc bitirib. Qədim tarixə malik olan xalçaçılığın inkişafını təmin etmək məqsədilə adıçəkilən nazirlik tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" layihəsi həyata keçirilir, muxtar respublikanın bütün rayonları üzrə bu sahə ilə məşğul olanlara dəzgahlar və xalça toxumaq üçün lazım olan materiallar verilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixdə imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikilməsi bu sahənin daha da inkişafına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" isə xalçaçılığın inkişafına yeni töhfələrini verməkdədir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin öyrənilməsi, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkil olunması məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilib, xalq yaradıcılığı ilə məşğul olan sənətkarlar haqqında məlumat bazası yaradılıb.

2012-ci ildə, "Milli dəyərlər ili"ndə muxtar respublikada beynəlxalq rəsm, folklor, muğam və xalq teatrları festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr keçirilib. Bu tədbirlər indi də davam etdirilir. Belə ki, son illərdə muxtar respublikada "Milli geyimlər", "Yaradıcı əllər", "İstedadlı uşaqlar", "Naxçıvan çörəkləri", "Plov", "Yallı" və "Kətə" kimi festivalların keçirilməsi milli-mənəvi dəyərlərimizə diqqət və ehtiramın ifadəsi kimi böyük rəğbətlə qarşılanır.

O da xüsusilə vurğulanmalıdır ki, xalqımızın ən əziz bayramı olan Novruz şənliklərində xalq yaradıcılığı nümunələri daha geniş təbliğ olunur. Bunun üçün hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil olunan Novruz şənliklərində belə nümunələrdən ibarət sərgilərin təşkili, musiqi kollektivlərinin çıxışları bayramı daha təmtəraqlı edir. Naxçıvan Dövlət və Uşaq filarmoniyalarının rəqs qrupları, Dövlət Filarmoniyasının Qədim musiqi alətləri ansamblı, Muğam studiyası, Tulum kvarteti, Naxçıvan Musiqi Kollecinin Sazçalanlar ansamblı, "Yallı" rəqs və "Naxçıvanqala" ritm qrupları, Muğam üçlüyü, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin Nağaraçalanlar ansamblı və rəqs qrupu, həmçinin digər musiqi kollektivlərinin ifası tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

*Xalqımızın müstəqillik yolunda inamla irəlilədiyi indiki şəraitdə xalq yaradıcılığının, əsrlərboyu yaranan mənəvi və maddi mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan muxtar respublikamızda xalq yaradıcılığı sahələrinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər naxçıvanlılar tərəfindən yüksək qiymətləndirilir, onlar bu tədbirlərdə fəallıq göstərirlər.*

**Muxtar MƏMMƏDOV**

# Novruz inancları

***Qədim zamanlardan xalqımız baharın, yazın gəlişini bayram edər, əsrlərin sınağından çıxmış adət-ənənələri qoruyub yaşadar. Zamanla insanlar arasında bu adət-ənənələrin bir çoxu ilə bağlı fərqli inanclar formalaşıb. Bu inanclar bütün ilboyu insanların həyatında müxtəlif dəyişikliklərlə xarakterizə olunur.***

Novruzun simvolu olan göyərdilmiş səməni bərəkət, bolluq rəmzi sayılır. Deyərlər ki, səməni düz, şax vəziyyətdə qalxarsa, həmin il məhsul bol, əyri, nazik olduqda isə qıtlıq olacaq. Bayramdan sonra səməni axar suya axıdılır, arxasınca da şirni səpilir. Bununla da ilboyu evdə ruzi, bərəkətin bol olacağına inanılır.

Novruz bayramını od-ocaqsız, gur tonqalsız təsəvvür etmək mümkün deyil. İnsanlar, xüsusilə İlaxır çərşənbə axşamı böyük tonqallar yandırar və bu tonqalların üzərindən atlanarlar. Bununla da bədxah qüvvə və nəfəslərdən, qorxu və çətinliklərdən xilas olacaqlarına inanarlar. Tonqalda üzərlik yandırma da yenilənmə ilə bağlı icra olunan ayinlərdəndir. İnsanlar bununla hər hansı mənfi nəzəri dəf edəcəklərinə, onun vasitəsilə bədnəzər, pis niyyətlərin təmizlənəcəyinə inanırlar. Bayram axşamı hər kəs öz evində, öz ocağının başında olmalıdır. İnanca görə, əgər belə olmazsa, həmin insan yeddi il bayram süfrəsi görməz. Həmçinin həmin gün ailənin sayı qədər süfrədə şam yandırılar, niyyət tutular. Əgər şam sona qədər yanarsa, tutulan diləklərin qəbul olunacağına inanılar. Səhər tezdən isə axar suyun üstündən "ağırlığım-uğurluğum tökül bu suyun üstünə", – deyib üç və ya yeddi dəfə tullanır, dərd-bəlaların, sıxıntıların köhnə ildə qalmasını arzu edərlər.

İnanclar, əsasən, Novruz fallarında qorunur, yaşadılır. Qulaq falı, qapıpusma hər bir bölgəmizdə, eləcə də Naxçıvanda geniş yayılıb. Bu fallar, xüsusilə İlaxır çərşənbə axşamı icra edilir. Hava qaralandan sonra ürəkdə niyyət tutub gizlincə qohum-qonşunun qapısına gedər, qapı dalında durub, ayağın altına açar atıb, içəriyə qulaq asarlar. Eşidilən ilk söz niyyətin yerinə yetib-yetməyəcəyinə işarə edər.

İlaxır çərşənbə axşamı yerinə yetirilən mərasimlərdən biri də üzüksalmadır. Bu vaxt subay qızlar üzüklərini bir qabın içərisinə salar, növbə ilə bayatı deyərlər. Bayatı oxunub başa çatandan sonra tasın içindəki üzüklərdən biri götürülər. Kimin üzüyü qabdan çıxarılsa, onun diləyi həmin bayatıdakı mətləbə uyğun yozular. Novruz axşamı arx kənarına bir yumurta, iki rəngli qələm qoyular və hər hansı bir iş üçün niyyət edilər. Səhər gedib arxın kənarına qoyulan yumurtaya baxılar. Yumurtanın tən ortasından qırmızı xətt "çəkildikdə", bu, niyyətlərinin baş tutacağı, qara xətt "çəkildikdə" isə əksi düşünülər.

Ümumiyyətlə, Novruz falları ilə bağlı inanclar say və məzmunca zəngindir. Məsələn, kuzə, açar, qıfıl, alma, iynə, qovurğa, ulduz və digərləri maraqlı olmaqla yanaşı, bir çoxu əski təbiət kultları ilə bağlı təsəvvürləri özlərində əks etdirirlər. Bu inanclar xalqımızın qədim mifoloji görüşlərini, mədəniyyət və folklor tariximizi öyrənmək, tədqiq etmək baxımından dəyərli nümunələrdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Qəhrəman ailələrinin ikiqat bayram sevinci

*Ömrümüzdən ötüb keçən günləri adilikdən sıyıraraq unudulmaz edən, tarixə çevirən qəhrəmanlardır şəhidlər. Bu dünyada hər birimizə bəxş olunan bir ömür payını Vətənə fəda etməklə həyata ən gözəl şəkildə əlvida deməyin adıdır şəhidlik!*

Övladı, həyat yoldaşı, yaxınları şəhid olanların, sağlamlıqlarını torpaqlarımız uğrunda mübariz döyüşlərdə itirən insanların doğmaları başlarını dik tutub, məğrurcasına



düşmənə gözdağı olsalar da, müəyyən məqamlarda onlara təsəlli olacaq diqqətə, qayğıya ehtiyacları var. Günümüzdə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı hərbi xidməti vəzifəsini yerinə yetirərkən, həmçinin 20 Yanvar və Çernobıl hadisələri zamanı sağlamlığını itirmiş vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, onlara mütəmadi olaraq yeni mənzillərin, avtomobillərin verilməsi, bu mənada, təqdirəlayiqdir. Ölkə Prezidentinin bu istiqamətdə imzaladığı müvafiq sərəncam və fərmanlar xalqımız tərəfindən insan amilinə yüksək qayğı kimi dəyərləndirilir. Qürurla deyə bilərik ki, doğma diyarımızda da bu kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Bütün bunların nəticəsidir ki, cari ildə müvafiq kateqoriyalı 157 şəxsin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 35 şəxsə müalicə müəssisələrinə göndəriş verilmiş, 4 ailəyə fərdi yaşayış evləri və mənzillər, 11 nəfərə minik avtomobilləri təqdim olunmuşdur.

Mart ayının 14-də – Novruz bayramı ərəfəsində muxtar respublikamızda bir şəhid ailəsinə və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlıq imkanlarını qismən itirmiş şəxsə yeni mənzillərin verilməsi onlara ikiqat bayram sevinci yaşatdı. Biz də bu sevincə şərik olmaq üçün həmin mənzillərə üz tutduq.

Qonağı olduğumuz ilk ünvan şəhid İbrahim Salmanovun anasına verilmiş mənzil oldu. Evin ilk qonaqlarını qarşılayan Firəngiz ana oğlunun 19 illik bir ömrə sığmayan həyat yolundan danışdı: – Bəzi hissləri sözlərlə ifadə etmək mümkün olmur. Bəzən sözlər hisslərin ifadəsində gücsüz olur, aciz qalır. Eynilə İbrahim haqqında danışmaq kimi. Oğlum hələ Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə təhsil aldığı illərdə müəllimlərinin və yoldaşlarının sevimlisi olmuşdu. Orta məktəbi başa vurduqdan sonra Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində operator kimi fəaliyyətə başlamışdı. Elə həmin dövrdə də hərbi xidmətə çağırılıb və hər bir azərbaycanlı gənci kimi, o da Vətənin müdafiəsini mənəvi borc bilərək xidmətə yola düşmüşdü. Ordubad rayonunda xidmət edən İbrahim



2000-ci ilin iyul ayında şəhid oldu.

Firəngiz ana onu da qeyd etdi ki, oğul itirmək nə qədər ağrılı-acılı olsa da, bu gün diyarımızda sakitlik, əmin-amanlıq şəraitində yaşayan insanları gördükcə qürur duyuram. Axı İbrahim kimi oğullarımız məhz xalqımız firavan yaşasın, Vətənimizə düşmən ayağı dəyməsin, – deyə öz canlarından keçiblər. Onlar bir xalq qəhrəmanı kimi zülmətləri yarıb, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan, əbədiyyətə qovuşan bəxtiyar insanlardır. Heç nə övladlarımızı əvəz etməsə də, onları geri qaytara bilməsə də, dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğı bizə böyük təsəlli, yaramıza məlhəm olur. Bu günlərdə şəhərimizin görkəmli yerlərindən birində gözəl, ikiotaqlı mənzillə təmin olunmağımız ailəmə, əzizlərimə ikiqat bayram sevinci yaşatdı. Bu sevinc həm də qəlbimdə bir minnətdarlıq hissi yaradıb. Çünki bu qayğı dövlətimizin hər an öz vətəndaşının yanında olduğundan xəbər verir. Buna görə ailəm adından minnətdarlığımı bildirirəm.

Qonağı olduğumuz digər ev Azərbaycanın ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş Sədrəddin Əsədova məxsusdur. Üç övlad atası olan müsahibim onlara yaradılan şəraitdən ağızdolusu danışır və deyir ki, bizə üçotaqlı, hər cür şəraitlə təmin olunmuş mənzil hədiyyə edilib. Dövlətimizin bu diqqət və qayğısı biz qazilərin də böyük sevincinə səbəb olur. Bütün bunlar gənclərimizə vətənpərvərlik hisslərini aşılamaqla bərabər, səngərdə döyüşən hər bir hərbçidə də əminlik yaradır. Bu gün torpaqlarımızı qoruyan qəhrəman oğullarımız əmindirlər ki, Vətən uğrunda canlarını fəda etmələri lazım gələrsə, ailələri dövlət qayğısı ilə əhatə olunacaqlar. Çünki dövlətimiz hər zaman şəhidinin, sağlamlığını itirənlərin, Milli Ordumuzun hər bir əsgərinin, zabitinin, ümumiyyətlə, hər bir vətəndaşının arxasındadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Bu gün şəhid ailəsinə, eləcə də Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlığını qismən itirmiş şəxsə yeni mənzillərin verilməsi Azərbaycanda dövlətçiliyin möhkəm təməllər üzərində qurulduğunu göstərir. O yerdə dövlətçilik haqqında danışmaq olar ki, həmin ölkədə dövlət-xalq birliyi olsun. Dövlətin ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş, vətənpərvərlik göstərmiş şəxslərə, şəhid ailələrinə diqqət və qayğısı digər vətəndaşlar üçün də nümunədir”.***

İki ailənin timsalında yurdumuzda Vətən uğrunda canından, sağlamlığından keçənlərə göstərilən qayğının, onların Vətənə əmanət etdikləri ailələrin göz bəbəyi kimi qorunmasının, himayə edilməsinin şahidi olduq.

Bu təkcə indi belə deyil, dünən də belə idi, sabah da belə olacaq. Çünki bütün bunlar ulu öndərin doğma Azərbaycanımızın müstəqilliyinin, əzəli torpaqlarımızın erməni qəsbkarlarının işğalından qorunması uğrunda əsl qəhrəmanlıq, şücaət göstərənlərə həssas və qayğıkeş münasibətinin davam etdirilməsinin, bu siyasi kursa sadiqliyin bariz nümunəsidir.

**✍ Telli MƏMMƏDOVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Qadının əmək hüquqları hansılardır?*

**Cavab:** Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. Bu qayda işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, habelə qadın əməyindən istifadə olunmasına yol verilməyən iş yerlərini işə götürməkdən imtina olunan hallara şamil edilmir.

Əmək müqaviləsi bağlanılarkən hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlara sınaq müddəti təyin olunmur.

Yaş yarıma çatmamış uşağı olan qadınlar, əmək funksiyasını yerinə yetirməklə yanaşı, uşağını yedizdirməkdə çətinlik çəkirlərsə, işəgötürən qadının ərizəsi ilə onu uşağı yaş yarımına çatanadək başqa yüngül işə keçirməlidir və ya uşağının yedizdirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməlidir – bu zaman onların orta əməkhaqqı saxlanılır və onların əməkhaqqının azaldılması qanunvericiliklə qadağan edilir.

Yaş yarıma çatmamış uşağı olan qadınlara iş vaxtı ərzində istirahət və yemək üçün verilən ümumi fasilədən başqa, həm də uşağını yedizdirmək üçün əlavə fasilələr verilməlidir. Bu fasilələrin hərəsi azı 30 dəqiqə olmaqla, hər 3 saatdan bir verilir. Qadının yaş yarıma çatmamış iki və daha çox uşağı olduqda hər fasilənin müddəti azı bir saat müəyyən edilir. Uşağın yedizdirilməsi ilə əlaqədar fasilələr iş vaxtına daxil edilir və orta əməkhaqqı saxlanılır.

Əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə qadın əməyinin tətbiqi qadağandır.

Hamilə qadınların və 3 yaşına çatmamış uşağı olan qadınların gecə işlərinə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə, habelə onların ezamiyyətə göndərilməsinə yol verilmir.

İşçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olan qadınların işdə saxlanılmasına üstünlük verilir.

İşəgötürən tərəfindən hamilə, habelə 3 yaşınadək uşağı olan, yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən qadınlarla işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qadağandır.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

*Naxçıvan mətbəxi*

# Bayram süfrələrinin şahı

*Plov milli mətbəximizin ən gözəl təamlarından biri, xeyirdə-şərdə, ad günü, nişan mərasimlərində, ən əziz qonağımız gələndə süfrələrimizi bəzəyən yemək növüdür. Muxtar respublikamızda da müxtəlif – qovurma müsəmbə, döşəmə, səbzi, çığırtma, qiymə, əriştə, tas-kabab, paxla, şüyüd, kükü, südlü, kişmiş, şirin, şaşəndaz, yarma kimi plovlar hazırlanır. Plov, adətən, məclisin sonunda süfrəyə gətirilir. Kəbin kəsilən günü bişirilən plova “kəbin aşı” da deyirik. Plovlar bişirilib süzülmüş düyüdən və ət, balıq, tərəvəz, yağ, yumurta və unlu qarnirlərdən ibarət üzgözlər (Naxçıvanda plovun aşqarasına deyilir) ilə hazırlanır.*




Elimizin ən əziz bayramı olan Novruzda qədim Naxçıvan diyarında hansı qapını döysən, o evdə bayram plovuna qonaq olarsan. Biz də bu günlərdə həmin ləziz mətbəx nümunəsinin hazırlanması qaydası ilə bir daha tanış olmaq üçün Şərur diyarının Ərəbyengicə kəndində Nazilə xanımın qonağı olub, onunla bu barədə söhbət etdik. Səmimi və gülərüz, dünyanın çətin və xoş üzünü görmüş, yaşı 60-ı keçən Nazilə xala bildirdi ki, bayram üçün bişirdiyimiz plov digərlərindən fərqlidir. O, həyatda qurduğu ocağı göstərərək bu cür bişən yeməyin, odunun közündə dəmə qoyulan plovun dadının da bir başqa olduğunu dedi.

Nazilə xala bizimlə söhbət edə-edə əvvəldən doğrayıb aşsüzənə yığdığı soğanı yan ocaqda içində yağ qaynayan teştə tökür və kəfkirlə yavaşca qarışdıraraq deyir ki, indi ocağın odunu azaltmaq lazımdır ki, soğan yanmasın. Düyü süzülməzdən öncə, bəzən də axşamdan üzgöz hazırlanır. Bunun üçün toyuq və ya mal əti bişirilib qızardılır, şabalıd, badam, qaysı, xurma, kişmiş, almaxaranın da hər biri ayrı-ayrılıqda qızardılır. Duz, istiot, sarıkök, zövqə görə noxud ləpəsi də əlavə olunur. Deyir ki, düyü yaxşı-yaxşı yuyulduqdan sonra duzlu suda isladılır və su qaynayana qədər saxlanılır. Su qaynadıqda duz ataraq düyünü qazana əlavə edir, limon da atırıq ki, düyünün rəngi parlaq olsun. Düyü bir neçə dəfə kəfkirlə qarışdırılır, yumşaldıqda aşsüzənə tökülərək süzülür. Sonra aşsüzəni başqa qabın üzərinə qoyuruq ki, düyünü aşsüzənin altındakı qaba süzülən qaynar həlimin buxarı vurub əzməsin və su tamamilə çəkilsin. Sonra qazanın dibinə azca yağ qoyulub dağ edilir. Sulanmış lavaş və ya qatıq və düyü ilə çalınmış yumurtadan dibinə qazmaq salınır, süzülmüş düyü qazana tökülür, üzərinə dağ edilmiş kərə yağı gəzdirilir, sarıçiçək səpilir, qapağı parçaya bükülərək qazanın ağzı kip örtülür. Nazilə xala bildirir ki, plov yağsız olmaz, yeməyə dad verən əsas ərzaq elə yağdır. Elə ki düyü dəm aldı, üstünə dağ edilmiş yağ tökərlər. Düyü ilə yağ bir-birinə qarışmalıdır. Təmiz kərə və quyruq yağının ləzzətli, həm də çox sağlam ərzaq olduğunu qeyd edən müsahibim “Görüş” filmindən “bu nə plovdu, yağ gətir. Plov da bişirə bilmirsiniz” kəlmələrini yada salaraq deyir ki, bu sözlərdə bir həqiqət var.

Mən də onun bu misalının cavabında deyirəm: – Tanınmış şairimiz Mirzə Əli Möcüz nahaq yerə yazmayıb ki, “o yeyir yağlı pilov, eylərmi qüssə, xiyov”.

Ocaqdakı düyünün artıq hazır olduğunu bildirən Nazilə xala bayaqdan danışdığı qaydada onu yenidən közün üzərinə dəmə qoyur və deyir ki, plovun yaxşı dəm alması üçün qazan közün üstündə bir neçə dəfə fırladılmalıdır. Artıq yan ocaqdakı aşın qarası da hazırdır.

Nazilə xala səbzi plov haqqında da danışır:

– Bu, Naxçıvanda ən çox sevilən və tez-tez bişirilən plov növüdür: ət doğranır, qaynadılır, süzülür, soğan doğranıb yağda qızardılır. Qızarmış ətin üzərinə səpilir. Sonra əvvəldən yuyulub doğranmış kəvər, keşniş, məzrə, şüyüd, tərxun, nanə, cəfəri, bir də ətin suyu, duz, istiot, sarıçiçək, limon duzu əlavə edilib bişirilir. Plov üçün üzgöz belə hazırlanır.

Müsahibim maraqlı bir məqama toxunur: – Ay qızım, torpağındandır ya suyundandır bilmirəm, amma Azərbaycanın bir çox rayonlarında, Türkiyədə, İranda qonaq olub çox süfrələrdə fərqli plovların dadına baxmışam, amma nədəndirsə, burada bişən plovun dadını ala bilməmişəm.

Müsahibim bir rəvayəti də nağıl edir: “Qədimdə bir padşah Naxçıvana gəlir. Burada xan onu gözəl bir plova qonaq edir. Bu plovun dadı padşahın damağında qalır. Qayıdıb ölkəsində öz aşpazlarına apardığı plov nüsxəsini (reseptini) verir ki, bişirin. Bişirib gətirirlər. Hökmdar görür ki, bu, o yeyəndən deyil, qasid göndərir ki, xan, bir aşpaz göndər mənə, o plovdan bişirsin. Gələn aşpazın bişirdiyi plov Naxçıvanda yediyi plova oxşasa da, yenə həmin dadı ala bilmir və padşah düyü də gətirtdirir. Görür yenə nəsə çatışmır, axırda öz məmləkətinə Naxçıvandan su da apartdırır. Plov yenə də Naxçıvanda yediyi dadda-ləzzətdə olmur. Axırda başa düşür ki, hər bir təam öz yurduna məxsusdur. Oranın aşpazını da, düyüsünü də, suyunu da aparıb öz ölkəsində bu yeməyi bişirtdirə bilər, amma o təam öz yurdundakı dadı, ləzzəti verə bilməz. Çünki Naxçıvandan hər şeyi gətirsə belə, oranın gül ətirli havasını gətirə bilməyəcək”.

*Bu gün doğma diyarımızın hər bir mətbəx nümunəsi ilə qürur duymağa mənəvi haqqımız var. Onlar içərisində plov xüsusi yerə malikdir. Nazilə xalanın dediyi kimi, Novruz bayramında bişirilən plov isə bir ayrı tamda olur. Çünki bu da yurdumuza məxsus bir nemətdir. Dünyanın bəzəyi Nəqşicahanım, bayramın mübarək! Qoy gələn bahar ölkəmizə sülh, əmin-amanlıq, evlərimizə xoşbəxtlik gətirsin, ocağımız yanar, qazanımız həmişə dolu olsun!*

**✍ Ramiyyə ƏKBƏROVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 279